Sultan Ali Nazari

## Aytəkin

*Məşhur saz ifaçısı Aşıq Aytəkin Qənbərqızına*

İffətli, həyalı əsil sənətkar,
Kipriyin ox, qaşın kaman yay təkin.
Gözəl ad qoyubdur, ad qoyan sənə,
Ulduzlar da cilvələnməz, ay təkin.

Kərəm qan ağlayır telli sazında,
Əslinin naləsi var boğazında.
Yaşıl olsun payızın da, yazın da,
Qış olmasın, ömrün olsun yay təkin.

Hansı bağça, hansı bağın barısan?
Nəzərimdə yer-göy ilə yarısan.
Tərtəmizsən, aydan-gündən arısan,
Bulaq təki, çeşmə təki, yay təkin.

Sultanam, daldadır sözümün çoxu,
Təbimdə ilhamsan, gözümdə yuxu.
Gözəl bir havayla şeirimi oxu,
Göndər doğma qardaşına pay təkin.
Aytəkinsən, Aytəkinsən, Aytəkin.